

**ƏBƏDİYYƏTƏ ƏN BÖYÜK SƏFƏRİMİZ**
**RAMIZ DUYĞUN**

*(lirik poema)*

**SƏMƏD VURĞUN**

Bir varaqla tarixləri, utan mənim qarşımda,
Anam Tomris kəsmədimi
KEYXOSROVUN BAŞINI?
KOROĞLUNUN, SƏTTARXANIN
ÇƏLƏNGİ VAR BAŞIMDA.
NƏSİLLƏRİM QOYMAYACAQ
DAŞ ÜSTÜNDƏ DAŞINI;
Anam Tomris kəsmədimi Keyxosrovun başını?

Sür atını, dördnala çap! Meydan sənindir... ancaq,
Mən görürəm al geyinib gələn bahar fəslini...
Qoca Şərqin günəşidir yarandığım bu torpaq,
Mən yetirdim al bayraqlı inqilablar nəslini,
Mən görürəm al geyinib gələn bahar fəslini!

**("YANDIRILAN KİTABLAR), 1946 İL.**

***PROLOQ***

Əbədiyyətə ən böyük səfərimiz öndədir.
Tarixdə bərq vuracaq
Ən böyük ZƏFƏRİMİZ öndədir...

**1.**

Min doqquz yüz
doxsanıncı illərin
Başımıza gətirilən
Qeyli-qalından sonra,
Qarabağın, Zəngəzurun,
Müvəqqəti işğalından sonra
Əlimizi, qolumuzu uzatmadıq,
Biz otuz il yatmadıq,
Düz otuz il yatmadıq.
Yuxu bizə haram oldu.
Nə axtardıq, nə seçdiksə,
Haram oldu.
Nə yediksə, nə içdiksə haram oldu.

Düz otuz il
Gözümüzə şirin yuxu getmədi.
"Məğlubiyyət!" bu kor duyğu,
Bircə gün də
Yadımızdan çıxmadı,
Qəlbimizi, beynimizi,
Bir an da tərk etmədi.

Boy vermədi boyumuza
Düşdüyümüz bu dərya.
Heç bir vaxtı ağ demədik,
Üzümüzə boyaq olan qaraya...

Bircə gün də barışmadıq,
Bəxtimizə yersiz düşmüş
Bu "qismətlə", "naxışla".
Qəlbimizdən
Fəryad qopdu, nalə qopdu,
Bircə kəlmə: "Vətən! Bizi bağışla!..

Biz and içdik:
"Biz o günü görəcəyik,
Biz Şuşaya tank üstündə
Qalib kimi girəcəyik!"..

And-qəsəm elədi,
Azərbaycan torpağının hər qarışı,
Dağı, düzü, talası:
"And içirik, Gələcəyik!
AND İÇİRİK, SƏNƏ Şuşa qalası!
..Biz gəldik də!
Şuşamızın hüzurunda
Qatlandıq da, Əyildik də!...

Qalib ALİ BAŞ KOMANDAN
NƏRƏ ÇƏKDİ
Dəmir- polad
Yumruğu da havada:
"Əlli milyonda bir candır!
Qarabağ Azərbaycandır!"...

**2.**

Dünən isə eyham vurdu:
"Bir yerdəyik,
Biz biriz!
Qarı düşmən!
Yaxşı eşit, yaxşı bil!
Azərbaycan Ərdəbil,
Azərbaycandır Təbriz!
Ayrı-ayrı deyilik!
Yarı-yarı deyilik!

Tarixlərdə yaşayır,
Silinməyəcək bir iz!
Ərdəbil Azərbaycan!
Azərbaycandır Təbriz!
Biz qan qardaşımıza,
Biz can qardaşımıza,
Saygısız olammarıq!
Qaygısız olammarıq!

Tarix boyu
Biz heç kimin divarına
Qara suvaq olmamışıq,
Qara palçıq olmamışıq!
Biz bütöv yaranmışıq,
Biz vahid yaranmışıq,
Yarımçıq olmamışıq!
Buna tarix şahiddir,
Biz də şahid olmuşuq!
Biz bütöv yaranmışıq,
Ancaq vahid olmuşuq!

Tarix boyu tarixlərdə
Haqq-ədalət qılıncını itiləyən
Korşalmayan
Məhək, bülöv olmuşuq.
Biz bütöv yaranmışıq,
Ancaq bütöv olmuşuq.
Xəyanətlər boğmuşuq,
Riyalar uçurmuşuq.
Dövlətlər yaratmışıq,
İmperiyalar qurmuşuq.
Sözü bütöv olmuşuq,
Özü bütöv olmuşuq!..
Qılıncımız səmalarla
tən dayanan tağlar yarıb,
Zirvəsinə quş qonmayan dağlar yarıb....

Yarıböyür olmamışıq,
Hər əlinə tüfəng alıb ov edənə
Ceyran-cüyür olmamışıq...

Ancaq nə söyləyəsən,
Ancaq nə eyləyəsən,
Tarixin gərdişinə,
Zamanın gərdişinə.
Taleyin bu işinə?!,
Yırtıcı, harın güclər
Bir-birini gəmirib,
Bir-birini çeynəyib,
Bir-biriylə döyüşüb,
Sıralar tərs düzülüb.
Kəmfürsət çarlar, şahlar,
Biri ikiyə bölüb
Doğmalar ayrı düşüb,
Qardaşlar ayrı düşüb...

Bu gün əbədiyyətə Ən böyük
Səfərin əyyamıdır!
Bu gün tariximizdə
Ən böyük ZƏFƏRİN əyyamıdır!.."

**3.**

Ali Baş Komandanın
Açıq, aydın bu eyhamı
Tarixin eyhamıdır,
Zamanın eyhamıdır!..
Bu tarixdə açılan
Ən böyük sirr olacaq!
Yarananda bir olan,
Yenə də bir olacaq!..

Bu gün qədim ODLAR YURDU
ƏN BÖYÜK ƏDALƏTƏ,
ƏN BÖYÜK HƏQİQƏTƏ
ŞAHİD
AZƏRBAYCAN OLACAQ!
Öz ilkin tarixinə,
Qovuşacaq!
Əvvəlki tarixi tək
VAHİD
AZƏRBAYCAN OLACAQ!

Bu, birlik səfəridir,
Dirilik səfəridir!
Birləşmək səfəridir,
Bir-birinin qəlbində,
Bir-birinin içində
Yerləşmək səfəridir!
Bu, Böyük xalqımızın
ƏBƏDİYYƏTƏ

ƏN BÖYÜK
SƏFƏRİ olacaqdır!
BEŞ MİN İLLİK
DÖVLƏTÇİLİK TARİXİNDƏ
ƏN BÖYÜK
ZƏFƏRİ olacaqdır!..

***EPİLOQ***

BU DÜNYADA HƏR ŞEY OLUR,
O TAY, BU TAY BİR OLACAQ.
QARĞI DÖNÜB BİR NEY OLUR,
O TAY, BU TAY BİR OLACAQ.

YAXŞI İŞLƏR GÖRÜLƏCƏK,
DİRƏKLƏR GÖTÜRÜLƏCƏK,
ÜRƏKLƏR GÖTÜRÜLƏCƏK,
O TAY, BU TAY BİR OLACAQ.

AZƏRBAYCAN ÖLKƏSİNDƏ,
QÜZEY, GÜNEY BÖLGƏSİNDƏ.
TARİXİN BU DÖNGƏSİNDƏ,
O TAY, BU TAY BİR OLACAQ.

SİNİRLƏR GƏRİLƏCƏK,
ÖLƏNLƏR DİRİLƏCƏK.
GÖRDÜYÜN ÜÇRƏNGLİ BAYRAQ,
SAHİL, SAHİL SƏRİLƏCƏK.
O TAY, BU TAY BİR OLACAQ.

YANAN OCAQ GURLANACAQ,
YOLLARIMIZ NURLANACAQ.
"GÜLÜSTAN" LƏĞV OLUNACAQ,
"TÜRKMƏNÇAY" LƏĞV OLUNACAQ!
O TAY, BU TAY BİR OLACAQ.

QOŞA HƏSRƏT SOVUŞACAQ,
BİR-BİRİNƏ YOVUŞACAQ.
İKİ ƏSR QOVUŞMAYAN
BİR GECƏDƏ QQOVUŞACAQ.
O TAY, BU TAY BİR OLACAQ.

QƏM KƏLƏFİ ÇÖZÜLƏCƏK,
ŞƏRİN CANI ÜZÜLƏCƏK.
QALİB RUHLAR BİR NƏFƏR TƏK
BOY SIRASI DÜZÜLƏCƏK.
O TAY, BU TAY BİR OLACAQ.

TAXTA CÜRƏ OLA BİLMƏZ,
SOBA KÜRƏ OLA BİLMƏZ.
BAŞQA CÜRƏ OLA BİLMƏZ,
O TAY, BU TAY BİR OLACAQ.

HƏSRƏT BİZƏ ƏSİR OLAR,
BU, AÇILAN SON SİRR OLAR.
BİR OLAN YENƏ BİR OLAR.
O TAY, BU TAY BİR OLACAQ.

SANIRSAN Kİ, DÜZ DEMİRƏM?!
LAP AZ QALIB, DÖZ DEMİRƏM!
MƏN HAVAYI SÖZ DEMİRƏM,
O TAY, BU TAY BİR OLACAQ.

YAZDIQLARIM ÇİN OLACAQ,
BARI, BİRƏ MİN OLACAQ.
BİR BAYRAQ, BİR HİMN OLACAQ.
O TAY, BU TAY BİR OLACAQ.

HƏR ŞEY OLUR BU DÜNYADA,
GƏLİN İNANAQ BUNA DA.
ALLAHDAN GƏLİR BU NİDA:
O TAY, BU TAY BİR OLACAQ...

***Bakı,***
***28 oktyabr 2022-ci il.***